# “De”feli törəmələrinin sintaktik vahidlərdə iştirak

Müasir Azərbaycan dilində "de" felinə müxtəlif şəkilçilər artırmaqla bir sıra feli törəmələr yaranır. Dilimində geniş işləklik dairəsinə malik olan bu feli törəmələrin işləndiyi cümlələr öz bitkinliyini itirir, yeni struktur formalar yaradır. Bu struktur formalar cümlənin müxtəlif üzvləri kimi çıxış edir. Ayrı-ayrı feli törəmələrdə bu prosesi nəzərdən keçirək.

Deyə. "Deyə" feli bağlaması qədim tarixə malikdir. Bu feli bağlama - a -ə //-ya, -yə şəkilçiləri əsasında formalaşmışdır.

Bu şəkilçi bəzi türk dillərində, o cümlədən müasir Azərbaycan dilində ancaq feli bağlama şəkilçisi, digər türk dillərində, məsələn, qıpçaq qrupu dillərində zaman (indiki zaman) şəkilçisi kimi işlənir.

"Deyə" forması bəzi sintaktik vahidlərlə birləşərək feli bağlama tərkibi əmələ gətirir və əksər hallarda cümlənin tərzi-hərəkət zərfliyi vəzifəsində işlənir. Məsələn:

"Demək, bunları da qonşunun atdığı güllələr qırıb töküb" deyə düşündüm və birdən mənə elə gəldi ki, tut ağacı da sükut içində dayanıb, kədərlə mənə baxır. (İ.Əfəndiyev)

"Deyə" feli bağlaması müxtəlif funksiyalarda işlənə bilir. Məsələn, "deyə" sözü deyib funksiyasında:

Bununla belə Mirkərim ağa dərs zamanı çox zabitəli olur: "Döyülməyən düyüdən aş olmaz" - deyə (deyib) uşaqları falaqqaya salmağı xəlfəsinə əmr eləyirdi (Ə.Cəfərzadə).

"Deyib", "deyə", "deyərək" feli bağlamaları sinonim səciyyəlidir.

“Üç gün mənə möhlət verin, mən onun ağlını başına gətirərəm!” - deyə (deyib, deyərək) Səlim ağa Cahan xanımın əlindən tutdu: - “Get yat, yaman yorğun görünürsən” (M.İbrahimov).

Göründüyü kimi, bu cümlədə "deyə" feli bağlamasını asanlıqla deyərək "deyib" feli bağlamaları ilə əvəz etmək olar.

Müasir Azərbaycan dilində "de" felindən "deyə" feli bağlamasının təkrar forması da düzəlir. Tək formada olduğu kimi "deyə" feli bağlamasının təkrar forması da təsriflənən felli sintaktik vahidə və ismi xəbərli sintaktik vahidə qoşulur, cümlədə müxtəlif cümlə üzvü kimi işlənir. Məsələn:

“Onlar həmişəki kimi yenə də səmimi görüşdülər. Bir-birinin qoluna girib, "buyur-buyur" deyə-deyə otağa girdilər.” (cümlənin tərzi-hərəkət zərfliyi vəzifəsində) (Ə.Vəliyev).

Bəzən "deyə" feli bağlaması yalnız bir cümləyə deyil, iki və daha çox cümləyə, sintaktik vahidə qoşularaq tərkib əmələ gətirir və cümlənin bir üzvinə çevrilir. Məsələn:

1. “Atam qocadır, dərdi ürəyinə salır dözür. Mən dözə bilmirəm”-deyə Ataş fikirləşdi (Ə.Vəliyev).

2. “Cənublu, Şimallı Azərbaycanın qulağı İsaq-Muşaq quşları kimi - budaqdan-budağa, şəhərdən-şəhərə, qitədən-qitəyə qonub: "qardaş eşidirsən", "hə, eşidirəm!", "qardaş, gəl görüşək" deyə dad-haray çəkən doğmaların səsindən tutulub” (S.Rüstəmxanlı).

DEYİB. "De" felindən törənən "deyib" feli bağlaması - "ıb" şəkilçisi əsasında formalaşmışdır. "ıb" şəkilçisi ən qədim şəkilçi kimi türk dillərində həmişə məhsuldar olmuşdur. Qədim Orxon-Yenisey abidələrində bu şəkilçiyə - ıp, -ip, -up, -üp formasında rast gəlinir.

"Kitabi - Dədə Qorqud"dan başlayıb gələn və klassik ədəbiyyatda, xüsusilə Nəsimi, Xətai, Füzuli və başqalarının dilində bu şəkilçiyə - übən, -uban, -übəni, - ubanı formasında rast gəlirik. Professor Hadi Mirzəzadə yazır: -"-ub feli bağlama şəkilçisi ilə eyni hüquqa malik olan übən … feli bağlama şəkilçisinə ədəbi dilimizdə daha çox XVIII əsrə qədər təsadüf edilir. XVIII əsrdən sonra bu şəkilçinin zəifləndiyi və ədəbi dilimizdən tərk olduğunu görürük" (7, 84).

Lakin - iban arxaik formasına bəzən indi də bədii ədəbiyyatımızda rast gəlmək olur. Məsələn:



*Hərəkət bildirən fellərdən hesab edilən "de" felindən şəkilçilər vasitəsi ilə əmələ gələn feli törəmələrin qrammatik xüsusiyyətləri haqqında türkologiyada, o cümlədən Azərbaycan dilçiliyində müəyyən fikirlər söylənilmiş, bir sıra xarakter nümunələr verilmişdir.*

*A.N.Kononov (5), N.K.Dmitriyev (2), H.Z.Hacıyeva (6), Z.İ.Budaqova (1), S.Ə.Əhmədov (3) kimi tədqiqatçılar bu məsələni bir-birindən o qədər də fərqlənməyən şəkildə izah etmiş, müxtəlif türk dillərində de felinin məna xüsusiyyətləri ilə əlaqədar bir sıra misallar vermişlər.*

*Azərbaycan dilçiliyində bu məsələdən ayrıca tədqiqat şəklində professor Z.Əlizadənin (4) "Deyə" sözünün qrammatik - funksional xüsusiyyətləri haqqında bəzi qeydlər" adlı məqaləsində ətraflı bəhs olunmuşdur. O, Azərbaycan dilində "de" felindən yaranan feli törəmələrdən bəhs edən tədqiqatçıların fikirlərinə öz münasibətini bildirmiş və "deyə" sözünün müxtəlif məna çalarları haqqında genişliyi ilə danışmışdır. Biz "de (mək)" feli haqqında söylənilən fikirlərə istinad edərək bu feldən yaranan müxtəlif törəmələri konkret misallar əsasında şərh etməyə çalışacağıq.*

Daha bu Zəngəzuru qoyub: "Asta qaçan namərddir", - deyibən qaçmaq, bu aradan ilim-ilim itmək gərəkdir. (S.Rəhimov).

Müasir Azərbaycan dilində "deyib" feli bağlaması daxilində sintaktik vahidlər birləşərək tərkib əmələ gətirir və cümlənin müəyyən üzvünə-zərfliyinə çevrilir.

Deyib feli bağlaması cümlədə nəqli keçmiş zaman mənasını bildirir və cümlənin xəbəri olur. Məsələn:

Bəli. "Atın var, qanadın var"-deyib (demiş) dünyagörmüş kişilər. (F.Eyvazlı).

Vaxt keçdikcə, bu danışıqları eşitdikcə Qaçay toxtadı: "Bu yekəlikdə adamlar bu cür fikrə düşdükləri halda, mən hələ də bir qızdan ötrü bu qədər dərd-fəryad eləyirəm", - deyib zəmanə ilə ayaqlaşmağa başladı. (Ə.Vəliyev)

Göstərilən misalda deyib feli bağlaması özündən əvvəl gələn donuq hala düşmüş sintaktik vahidlə birləşərək yeni konstruksiya əmələ gətirmiş, cümlənin zərfliyi vəzifəsində çıxış etmişdir.

Deyərək: Bu feli bağlama forması deyə, deyib feli bağlama formalarının sinonimidir. Özündən əvvəl gələn sintaktik vahidlə birləşərək tərkib əmələ gətirir və cümlənin zərfliyi vəzifəsində işlənir. Misallara müraciət edək.

1. Sonra Səlim "Bulağın gözünə yaxın olmaq yaxşıdır!" - deyərək özünü bəyin həyətinə vermişdi (M.İbrahimov).

2. Hər halda, Qafar üzü astardan ayırmaqdan ötrü həyətin ortasından adam boyu hasar çəkdirib, "ayrı qardaş, yad qonşu" deyərək Ağayardan iraq dolanmağa çalışırdı(Əbülhəsən).

3. O, öz-özünə: Eyb etməz, səni elə məhv edərəm ki, adın da çəkilməz, - deyərək Rayanı könülsüz öpdü və ayrıldı (M.S.Ordubadi).

Deyəndə. Deyəndə feli bağlaması ilə işlənən sintaktik vahidlər cümlədə zaman zərfliyi vəzifəsini daşıyır. Məsələn:

Qafar: "Mən ancaq halal qazancımı yeyə bilərəm!" - deyəndə əmisi də, nənəsi də istehza ilə gülərdilər (Əbülhəsən).

Dedikdə. Bu feli bağlama forması deyəndə forması ilə məzmunca sinonimləşir, yəni qoşulduğu sintaktik vahidlə birlikdə zaman zərfliyi funksiyasında çıxış edir.

"Bərəkətli olsun, ay çoban qardaş" - dedikdə "xoş gəldiniz" cavabını aldı (Ə.Vəliyev).

Demədən. Bu feli bağlama formasını yaradan şəkilçilər iki variantda özünü göstərir: mədin, -madın, - mədən, - madan. I varianta XVI əsr yazılarında rast gəlinir. Sonrakı dövrdə isə yalnız II variant işlənmişdir. (7, 87). Bu şəkilçilər vasitəsi ilə yaranan feli bağlamalar əsasən vəziyyət, qismən də zaman bildirir.

Narxanım narazı halda geri döndü, çobana "gecən xeyrə qalsın" demədən, alaçıqlarına tərəf getdi (Ə.Vəliyev).

Bu cümlədə "gecən xeyrə qalsın" donuq hala düşərək, öz sintaktik səciyyəsini itirmiş, cümlə "demədən" feli bağlamasının içərisində ərimiş və cümlənin tərzi-hərəkət zərfliyi vəzifəsində işlənmişdir.

Deyən. Bu "de" felindən törənən feli sifət formalarından

biridir. "De" felinin sonuna - an// - ən şəkilçisi artırılaraq feli sifət forması yaranmışdır.

Türk dillərində -an//-ən//-en, -qan//-qen, şəkilçili feli sifətlər indiki zaman anlayışı ilə yanaşı, cümlənin əks etdirdiyi ümumi məna ilə əlaqədar ümumi zaman, məzmunu bildirir.

Lakin Nataşanın əlini qolunda hiss edib "qorxma, buradayıq!" deyən pıçıltısını eşitdikdə rahat olub irəlilədi (M.İbrahimov).

Bu cümlədə "qorxma, buradayıq!" - deyən feli sifət tərkibi içərisində əriyən "qorxma, buradayıq!" cümləsi sintaktik vahidin hissəsinə çevrilmiş və II növ təyini söz birləşməsinin I tərəfinə daxil olmuş, informativ yükü müstəqil daşıya bilməmiş və beləliklə, feli törəmədə iştirak edərək zaman zərfliyi vəzifəsində işlənmişdir.

Bu sözlər hamının ürəyindən "xəbər verdi": "Çox sağ ol, əmi, dilin var olsun!"-deyənlərin sayı-hesabı olmadı (Ə.Vəliyev).

Bu cümlədə intonasiyasını itirmiş "Çox sağ ol, əmi, dilin var olsun" sintaktik vahidi öz müstəqil cümlə səciyyəsini saxlamamış, cümlədən feli sifət tərkibi yaradaraq III növ təyini söz birləşməsinin I tərəfi kimi işlənmiş, cümlənin mübtədası vəzifəsini daşımışdır.

Daha biz heç kəsə dəyib dolaşan, "gözün üstündə qaşın da var" deyən deyilik. (S.Rəhimov).

Burada isə feli sifət qoşulduğu sintaktik vahidlə birlikdə cümlənin mürəkkəb xəbəri vəzifəsini daşıyır.

Deməк. "De" felinin törəmələrindən biri də - mək şəkilçisi ilə düzələn demək məsdəridir.

Türk dillərinə həsr olunan qrammatikaların əksəriyyətində - mak//-mək şəkilçisi ilə formalaşan fellər həm məsdər və həm də hərəkət adı kimi səciyyələndirilir.

Oğuz qrupu dillərində məsdərlər - maq//-mək//-mek şəkilçiləri ilə əmələ gəlir.

"De" felindən törənən feli bağlama, feli sifət kimi, məsdər də özündən əvvəl gələn sintaktik vahidlə birləşərək tərkib əmələ gətirir və cümlənin hər bir üzvü vəzifəsini daşıyır.

1. "Doğru buyurursunuz" - deməklə iş qurtarmır. (Ə.Vəliyev).

2. Ana soruşanda ki, "Əşrəf, niyə bikefsən?" oğul Nübarın barəsində eşitdiklərini nağıl eləmək əvəzinə "başım bərk ağrayır" - deməklə kifayətləndi (Ə.Vəliyev).

3. Olmayan işləri milis rəisinə danışıb "qarğa məndə qoz var" - demək örüsündə oğru zənn eləmək kimi bir şeydir. (Ə.Vəliyev).

Bu cümlələrdə məsdər tərkibi cümlənin tərzi-hərəkət zərfliyi, tamamlığı və mübtədası kimi işlənmişdir.

Müşahidələrimiz göstərir ki, "de nitq felinin müxtəlif qrammatik formaları zəngin üslubi imkanlara malikdir. Bu imkanların linqvistik baxımdan öyrənilərək orta məktəb Azərbaycan dili təliminin məzmununa gətirilməsi maraq doğurur.

***Sevinc HƏSƏNOVA,***
***Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin Ədəbiyyat və Azərbaycan dili kafedrasının müəllimi, pedaqoji elmlər namizədi***